Ümummilli liderimiz Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illər ölkəmiz üçün həlledici dövr olmuş, bu illər ərzində dövlətçiliyimizin möhkəm təməli qoyulmuş, respublikanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyənləşdirilmiş, Azərbaycan dünya birliyinə qovuşmuşdur. Həmin müddətdə ciddi islahatlar aparılmış, bazar təsərrüfatçılığı sisteminin əsasları formalaşdırılmış, respublikaya böyük həcmdə investisiyaların cəlb olunması geniş vüsət almışdır. Eyni zamanda, o dövrdə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmiş, siyasi sistem möhkəmləndirilmiş və ölkəmizin uğurlu inkişafı üçün möhkəm zəmin yaradılmışdır. Lakin ulu öndərin səhhətində problemlər yaranması səbəbindən bir sıra taleyüklü layihələrin icrasının yarımçıq qalma ehtimalı ortya çıxa bilərdi. Ona görə də 2003-cü il oktyabrın 1-də Prezident Heydər Əliyev Azərbaycan xalqına müraciət edib öz namizədliyini siyasi varisi İlham Əliyevin xeyirinə geri götürdüyünü elan edərək bildirirdi: "Üzümü Sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Sosial-iqtisadi islahatlar yeni mərhələyə daxil olur

Əlbəttə, bu inam ulu öndərin siyasi varisi İlham Əliyevin üzərinə böyük məsuliyyət qoyurdu. Hələ prezident seçkiləri ərəfəsində, yəni 2003-cü il avqustun 15-də prezidentliyə namizəd, Baş nazir İlham Əliyev ABŞ-ın Assoşiyted Press agentliyinin müxbirinə müsahibəsində demişdi: "Ölkəmizin əksər vətəndaşları üçün də ən başlıcası indiki siyasətin davam etdirilməsi, indiki vəziyyətin qorunub saxlanmasıdır. Əgər bu gün məni bunun üçün lazımlı adam hesab edirlərsə, bu məsuliyyəti üzərimə götürməyə hazıram". Bu əminliyin arxasında Heydər Əliyev məktəbinin verdiyi güc, siyasi sərişte, möhkəm iradə və xalqın ümummilli liderin siyasətinə inamı dayanırdı.

Cənab İlham Əliyev o vaxt praqmatik siyasətçi kimi özünü ölkə, xalq qarşısındakı xidmətləri ilə təsdiq etmişdi və bilirdi ki, yalnız Heydər Əliyev strategiyasını həyata keçirməklə, bu dahi şəxsiyyətin siyasi yolunu davam etdirməklə Azərbaycanı güclü dövlətə çevirmək mümkündür.

Həmin dövrdə İlham Əliyevin prezident seçilməsi xalqın ulu öndərə, onun siyasi kursuna sadiqliyini bir daha nümayiş etdirdi. Bu, həm də hər bir Azərbaycan vətəndaşının ümummilli liderə sevgisinin və sonsuz inamının təsdiqi idi.

Prezident kimi fəaliyyətə başlayan cənab İlham Əliyev andiçmə mərasimində ona göstərilən etimada görə xalqına minnətdarlığını bildirərək, Heydər Əliyev siyasətinə sadiq qalacağını bəyan etdi: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Beləliklə, 2003-cü ildən etibarən respublikada sosial-iqtisadi inkişaf keyfiyyətcə yeni mərhələyə daxil idi. Dövlət başçısının "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixli fərmanına uyğun olaraq, islahatların dərinləşməsi, aqrar siyasətin institusional mexanizmlərinin, həmçinin iqtisadi rıçaqların tətbiqinə əsaslanan tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsinə başlandı. 2004-2008-ci, 2009-2013-cü və 2014-2018-ci illərdə ölkədə regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramlarının icrası yerlərdə müasir sosial və istehsal infrastrukturun formalaşdırılmasına, kəndlə şəhər arasındakı fərqlərin minimuma endirilməsinə zəmin yaratdı. Regionların siması tamamilə dəyişdi.

Ümumiyyətlə, 2003-cü ildən ötən 15 il ərzində Azərbaycan xalqı və dövləti, sözün əsl mənasında, sürətli inkişaf dövrünü yaşamış, ölkəmiz dünya iqtisadi sisteminə inteqrasiya olunmuş, ərzaq və ekoloji təhlükəsizliyin təmin edilməsi, iqtisadiyyatın diversifikasiyası yüksək səviyyədə həyata keçirilmişdir.

Əlbəttə, bütün bunlar cənab İlham Əliyevin düşünülmüş sosial-iqtisadi inkişaf strategiyası sayəsində, konkret istiqamətlər üzrə hazırlanan proqramlar əsasında uğurla gerçəkləşmişdir. Təkcə belə bir faktı xatırlatmaq kifayətdir ki, 2003-2018-ci illər ərzində dövlət başçısının təşəbbüsü və rəhbərliyi ilə ölkə üzrə ümumilikdə 202 proqram, o cümlədən 12 konsepsiya, 12 milli strategiya,12 strateji yol xəritəsi, 95 Dövlət proqramı, 10 milli fəaliyyət planı, 23 tədbirlər planı, 21 tədbirlər proqramı, 17 milli plan və proqram qəbul edilmişdir.

Göstərilən strateji sənədlər əsasında həyata keçirilən məqsədyönlü siyasət ölkəmizdə iqtisadiyyatın bütün sahələrinin uğurla inkişafına təminat yaratmışdır. Bununla əlaqədar özünün təkcə iqtisadi deyil, həm də sosial önəmliliyi ilə seçilən aqrar sahədə baş verən irəliləyişlər üzərində xüsusi dayanmaq istərdik. Prezident İlham Əliyevin qeyd etdiyi kimi,"Azərbaycanın kənd təsərrüfatı böyük potensiala malikdir və ölkənin qeyri-neft strategiyasında ən əhəmiyyətli seqmentlər sırasında qalır. Buna görə kənd təsərrüfatı qeyri-neft məhsullarının ixracını, ərzaq təhlükəsizliyini və insanlar üçün iş yerlərini təmin edə bilən sahədir".

Dövlət müstəqilliyinin ilk illərindən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan əsaslı aqrar islahatlar kənd təsərrüfatında azad sahibkarlıq sisteminin formalaşdırılmasını təmin etmiş, onun dinamik inkişaf yoluna çıxarılmasına imkan vermişdir. Aqrar sahənin inkişafı ilə bağlı məsələlər daim cənab İlham Əliyevin xüsusi diqqət mərkəzində olmuş, sistem transformasiyalarının sonrakı mərhələlərində də islahatlar ardıcıl surətdə dərinləşdirilmiş, sahəyə çoxşaxəli dövlət dəstəyi sistemi formalaşdırılmışdır.

Postislahat dövründə ümumən makroiqtisadi sabitlik bərqərar olmuşdur ki, bu da digər sahələrdə olduğu kimi, kənd təsərrüfatının da davamlı artım rejimində inkişafının mühüm amillərindən birinə çevrilmişdir. Azərbaycan dövləti tərəfindən uğurlu siyasətin həyata keçirilməsi sayəsində göstərilən dövrdə baş vermiş qlobal maliyyə və iqtisadi böhranın zərərli təsirlərindən qorunmaq mümkün olmuşdur.

Digər tərəfdən, sürətli inkişaf strategiyasının reallaşdırılması gedişində gəlirlərin yüksək templə artırılması aqrar istehsal məhsullarına tələbin yüksəlməsi, daxili bazarın genişlənməsi ilə nəticələnmişdir.

Məlumdur ki, bütün dövlətlərdə olduğu kimi, Azərbaycanda da kənd təsərrüfatı istehsalçıları imtiyazlı vəziyyətdədir. Onlar 1999-cu ildən başlayaraq torpaq vergisindən başqa, bütün vergilərdən azad edilmiş, 2007-ci ildən etibarən isə gübrə, toxum, cins mal-qara, texnika, yanacaq, motor yağı və s. almaq üçün büdcədən verilən subsidiyalar və güzəştlərlə təmin olunmuşlar.

Ötən 10 il müddətində kənd təsərrüfatı məhsulları istehsalçılarına müxtəlif dəstək tədbirləri üzrə 1,2 milyard manata yaxın subsidiya ödənilmişdir. "Aqrolizinq" ASC tərəfindən ölkəyə 44 minə yaxın kənd təsərrüfatı texnikası, 843 min ton mineral gübrə və 30 mindən artıq damazlıq heyvan gətirilərək güzəştli şərtlərlə lizinq yolu ilə istifadəyə verilmişdir. Cins mal-qara, toxum, şitil, gübrələr, pestisidlər, laboratoriya avadanlığının idxalı, həmçinin satışı, taxıl və paxlalı bitkilərin toxumlarının becərilməsi, təmizlənməsi, çeşidlənməsi və kalibrlənməsi üçün maşınların idxalı və satışı, kənd təsərrüfatı heyvanlarının, habelə quşların profilaktikası, diaqnostikası və müalicəsi üçün baytarlıq preparatlarının, suvarma və başqa məqsədlər üçün kənd təsərrüfatı təyinatlı qurğuların, maşın, avadanlıq və texnikanın idxalı ƏDV-dən azad edilmişdir.

Yeri gəlmişkən, "Bitkiçilikdə intensiv inkişafın təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Prezidentinin 2018-ci il 2 mart tarixli sərəncamına əsasən, satış qiymətinə tətbiq olunan güzəştin yuxarı həddinin mineral gübrələr üçün 50 faiz, pestisidlər üçün isə 5 dəfə artırılması məhsul istehsalçıları tərəfindən rəğbətlə qarşılanmışdır.

Yuxarıda qeyd edilən stimullaşdırıcı tədbirlərdən başqa, kənd təsərrüfatı istehsalçıları, həmçinin Sahibkarlığın İnkişafı Fondunun xətti ilə güzəştli kreditlərdən istifadə imkanları əldə etmişlər.

Onu da xatırladaq ki, hər il dövlət büdcəsindən aqrar sektorun istehsal infrastrukturunun genişləndirilməsi və təkmilləşdirilməsinə daha böyük həcmdə vəsait yönəldilir, kənd təsərrüfatı istehsalçılarına dəstək formaları genişləndirilir, onlara subsidiyaların verilməsi və güzəştli qaydada kreditləşdirmənin həyata keçirilməsi üçün ayrılan resurslar əhəmiyyətli dərəcədə artırılır.

Ölkəmizdə aqrar sahənin inkişafına, ərzaq təhlükəsizliyinin təmin edilməsinə yönəldilmiş Dövlət proqramlarının həyata keçirilməsi, geniş institutsional quruculuq və modernləşdirmə tədbirləri kənd təsərrüfatını yeni mövqelərə çıxarmasına şərait yaradır. Nəticədə ərzaq təyinatlı məhsullarla özünütəminetmə səviyyəsinin yüksəldilməsində əhəmiyyətli irəliləyişlərə nail olunmuş, meyvə, tərəvəz və bir sıra digər kənd təsərrüfatı məhsulları və onların emalından alınan ərzaq məhsulları və içkilərin ixracı həcminin artımı davamlı xarakter almışdır. Həmin məhsulların payına qeyri-neft ixracının yarısından çoxu düşür.

Ölkədə reallaşdırılan sürətli inkişaf strategiyası çərçivəsində son 15 ildə kənd təsərrüfatının istehsal həcminin 2 dəfəyədək artması təmin olunmuşdur. Kənd təsərrüfatı məhsullarının artım tempi ölkə əhalisinin artım tempini 3 dəfədən çox qabaqlamış, bununla əlaqədar adambaşına istehsal həcmi 1,5 dəfədən çox yüksəlmişdir.

Aqrar sahədə dövlət dəstəyi tədbirlərinin davam etdirildiyi bütün bu illər ərzində kənd təsərrüfatı məhsullarının intensiv metodlar və müasir texnologiyalar əsasında istehsalı və emalı geniş miqyas almış, aqrar sektorun infrastruktur təminatı xeyli yaxşılaşmışdır. Taxtakörpü və Şəmkirçay su anbarlarının istifadəyə verilməsi sayəsində suvarılması təmin ediləcək on minlərlə hektar yeni torpaq sahəsi dövriyyəyə daxil edilmişdir. Ölkə əhalisinin ərzaq təhlükəsizliyi daha da möhkəmləndirilmiş, əsas ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsi artmışdır.

Qeyd edildiyi kimi, son 15 ildə aqrar sahədə sistemli şəkildə həyata keçirilən islahatlar və göstərilən yüksək dövlət dəstəyi sayəsində kənd təsərrüfatında istehsal göstəriciləri də davamlı olaraq yüksəlmişdir. Bu nəticələr daxili bazarda yerli istehsal hesabına təklifin artmasına, özünütəminetmə səviyyəsinin yüksəlməsinə, fermerlərin gəlir əldə etmək imkanlarının yaxşılaşmasına şərait yaratmaqla bərabər, qeyri-neft ixracının artırılmasında da mühüm rol oynamışdır. Bu fikrin təsdiqi olaraq statistikaya əsasən xatırladaq ki, 2003-2017-ci illərdə kənd təsərrüfatı məhsulları istehsalının real artımı ümumilikdə 166,4 faiz, o cümlədən bitkiçilik sahəsində 156,7 faiz, heyvandarlıq sahəsində isə 177,8 faiz təşkil etmişdir. Dünya Bankının məlumatlarında isə bildirilir ki, sözügedən dövrdə Azərbaycanda kənd təsərrüfatının real artımı dünya üzrə orta göstəricidən, habelə region ölkələrinin müvafiq göstəricisindən yuxarı olmuşdur. Qeyd edilən dövrdə kənd təsərrüfatı məhsullarının ixrac həcminin 6,3 dəfə, o cümlədən meyvə-tərəvəz məhsullarının isə 10,4 dəfə artırılması da yuxarıdakı fikri bir daha təsdiq edir.

Yüksək əlavə dəyər yaradan ənənəvi sahələr-- pambıqçılıq, tütünçülük, çəltikçilik, baramaçılıq, çayçılıq, üzümçülük və sitrus meyvəçiliyi ilə bağlı qəbul olunan Dövlət proqramları çərçivəsində həyata keçirilən islahatlar da aqrar sahənin inkişafını sürətləndirmişdir. Nəticədə kənd yerlərində geniş məşğulluq potensialı yaradılmış, şəhərdən kəndə miqrasiya meyilləri güclənmişdr.

Aqrar sahənin inkişafına ölkə Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 6 dekabr 2016-cı il tarixli fərmanı və 16 mart 2016-cı il tarixli sərəncamı ilə təsdiqlənmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" də mühüm təsir göstərmişdir.

Qeyd olunan strateji yol xəritələri 2016-2020-ci illərdə iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, həmçinin 2025-ci ilə qədər olan dövr üçün 12 istiqamət üzrə uzunmüddətli baxışı, o cümlədən "Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə Strateji yol xəritəsi"ni əhatə edir.

Yerli iqtisadiyyatın beynəlxalq aləmdə rəqabətə davamlılığının artırılması, idxaldan asılılığın azaldılması, qeyri-neft məhsulları ixracının əsaslı şəkildə artırılması məsələləri yeni mərhələnin əsas prioritetləridir. Strateji yol xəritəsi ortamüddətli və uzunmüddətli perspektivdə iqtisadiyyatın və onun prioritetli sahələrinin davamlı inkişafının təmin olunmasına yönəldilmişdir.

Yol xəritəsində aqrar risklərin sığortalanması, yəni quraqlıq, dolu, qasırğa və s. əlverişsiz təbii hadisələr üzündən yarana biləcək məhsul itkisi ilə əlaqədar fermerə dəyən zərərin qismən və ya tam ödənilməsi məsələsinə əhəmiyyətli yer ayrılmışdır. Bununla əlaqədar, Aqrar Sığorta Fondunun yaradılması planlaşdırılır. Bütövlükdə, 2020-ci ilə qədər kənd təsərrüfatı sahəsində tədbirlərin reallaşdırılması hesabına ümumi daxili məhsulun 1,2 milyard manat artırılması nəzərdə tutulmuşdur.

"Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə Strateji yol xəritəsi"ndə nəzərdə tutulanların həyata keçirilməsi Azərbaycan Prezidentinin 29 yanvar 2019-cu il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ilə dəstəklənir. Bu isə şübhəsiz ki, kənd təsərrüfatı məhsulları istehsalını əhəmiyyətli dərəcədə artırmağa və əhalinin bu məhsullara artan tələbatını təmin etməyə geniş imkanlar açacaqdır.

Aqrar sahənin innovativ texnologiyalar əsasında inkişafının sürətləndirilməsi ilə bağlı məsələlər son dövrlərdə ayri-ayri sahələr üzrə qəbul olunmuş Dövlət proqramlarında da əksini tapmışdır. Strategiya sənədlərində müəyyənləşdirilən innovativ inkişaf vəzifələrinin həyata keçirilməsi məhsuldarlığın yüksəldilməsi, istehsal xərcləri səviyyəsinin aşağı salınması istiqamətlərində öz bəhrəsini verməkdədir. Bütün bunlar son nəticədə əkinçilik və heyvandarlıqda rəqabətqabiliyyətliliyin yüksəldilməsinə imkan yaradır, xarici bazara çıxış imkanlarını artırır.

Aqrar sahə məhsulları ixracının artırılmasının əsas hədəf kimi müəyyənləşdirilməsi ilə əlaqədar, ölkədə və onun hüdudları xaricində logistik ixrac infrastrukturunun formalaşması prosesinə başlanılmışdır. Artıq meyvə-tərəvəz məhsullarının sürətlə daşınması üçün "yaşıl" dəhlizlər yaradılır, yerli kənd təsərrüfatı məhsullarının xaricdə reklamı üzrə kompleks tədbirlər həyata keçirilir. Paytaxtın Ekspo mərkəzində hər il reallaşdırılan "World Food Azerbaijan" beynəlxalq kənd təsərrüfatı sərgiləri yerli məhsulların ixrac potensialını genişləndirməyə şərait yaradır. Hazırda yerli aqrosənaye məhsulları dünyanın bir çox bazarlarına ixrac olunur. Bu siyahıya Rusiya Federasiyası, MDB-nin digər dövlətləri və Baltikyanı ölkələrlə yanaşı, Türkiyə, Çin, Çexiya, Avstriya, Almaniya, İspaniya, İtaliya, Şimali Avropa ölkələri, Hindistan, İordaniya, BƏƏ də daxildir.

Araşdırmalar göstərir ki, respublikada kənd təsərrüfatı məhsullarının istehsal potensialından istifadə səviyyəsi ən yaxşı halda 30-35 faiz təşkil edir. Bu sahədə məhsuldarlığın, məhsul istehsalının artırılması, istehsal xərclərinin minimuma endiriməsi yolu ilə iqtisadi səmərəliliyin yüksəldilməsi və rəqabət üstünlüyünün rəqabətqabiliyyətliliyə çevrilməsi üçün qarşıda həlli vacib bir sıra məsələlər durur. Buna əkinə yararlı suvarılan torpaqların münbitliyinin bərpasını, yerli toxumçuluğun inkişafını, innovativ və institusional metodlardan istifadəni, peşə vərdişləri və savadlılığı ilə yanaşı, qərar qəbul etmə qabiliyyətli sahibkarların yetişdirilməsi, seçilmiş müəssisə tipindən asılı olmayaraq, çevik idarəetmə üsullarını, nəhayət, birgə təsərrüfatçılıq, kooperativ fəaliyyətin aşılanması və tətbiqini misal göstərmək olar.

Qeyd edilən ideyanın həyata keçirilməsi istiqamətində zəruri institutsional baza yaradılmışdır. 2016-cı ildə "Kənd təsərrüfatı kooperasiyası haqqında" qanun qəbul olunmuşdur. Eyni zamanda, Azərbaycan Prezidentinin 14 iyul 2017-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir.

Hazırda ölkədə pilot kooperativlər yaradılmağa başlanmışdır. Pilot kooperativlər müvafiq istiqamətlər üzrə kooperativlərin kütləvi formalaşdırılması və fəaliyyət göstərmələri üçün zəruri mexanizmlərin yaradılması və sınaqdan keçirilməsi üçün poliqonlara çevrilməlidir. Eyni zamanda, qarşıdakı dövrdə kənd təsərrüfatında kooperativlərin, xüsusilə istehsal kooperativlərinin, yaradılması istiqamətində işlərin kampaniyaya çevrilməsinə imkan verilməməlidir.

Yəni beynəlxalq təcrübə əsas götürülməklə, kooperativlərin regional torpaq-iqlim şəraiti nəzərə alınmaqla könüllülük və stimullaşdırma əsasında yaradılması prinsipinə sonadək əməl edilməlidir. Bununla yanaşı, onların formalaşdırılması zamanı yerli mental xüsusiyyətlər, təsərrüfatçılıq təcrübələri nəzərə alınmalıdır. Kooperativin ölçülərini səciyyələndirən göstəricilərin, yəni onun üzvlərinin sayının və istifadəsində olacaq torpaq sahəsinin konkret şəraitdən asılı olaraq fərqli ola biləcəyi diqqət mərkəzində saxlanılmalıdır. Hətta eyni inzibati rayon və ya yaşayış məntəqəsi daxilində də bu fərqlər əhəmiyyətli ola bilər. Bununla əlaqədar, arqar istehsal kooperativlərinin ölçülərinin müəyyənləşdirilməsi ilə bağlı hər hansı bir xarici ölkənin, məsələn, İsrailin təcrübəsindən çıxış etməklə irəli sürülən ekspert fikirinin ümumi tövsiyə kimi yayılması təşəbbüsünə ehtiyatla yanaşmaq lazımdır.

Digər həlli vacib məsələlərdən biri də kənd təsərrüfatı müəssisəsində fəaliyyət göstərən mütəxəssisin, iş adamının, sahibkarın peşə savadlılığı ilə bərabər, onun təşkilatçılıq, iqtisadi əsaslandırma, idarəetmə, planlaşdırma və nəhayət, düzgün qərar qəbul etmə qabililiyətliliyi ilə bağlıdır. Bu sahədə məsləhət xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi və davamlılığının təmin olunması ilə yanaşı, müvafiq Dövlət proqramının işlənməsinə və reallaşdırılmasına ehtiyacın təmin olunması kənd təsərrüfatında yeni nəsil sahibkarlar ordusunun yaranmasını sürətləndirir.

Dövlətin tapşırıq və tələblərinə nəzərən aqrar sahənin müasir inkişaf mərhələsində vurğulanan məsələlərin həllinin tam gerçəkləşdirilməsi üçün ardıcıl, sistem xarakterli məhsuldar fəaliyyət planının reallaşdırılacağı şübhə doğurmur.

Yeri gəlmişkən, burada bir məqamı da xüsusi vurğulamaq istərdik. Cənab İlham Əliyev bütün prezident seçkilərində ötən fəaliyyəti dövründə siyasi, sosial-iqtisadi sahələrdə əldə olunan nailiyyətlərin növbəti illərdə də davam etdiriləcəyi, bu məqsədlə çox ciddi tədbirlər həyata keçiriləcəyi, islahatların daha da dərinləşdiriləcəyi və vətəndaşların yaşayış səviyyəsinin daha da yaxşılaşdırılacağı anonsunu vermiş, qarşıda duran vəzifələri müəyyənləşdirmişdir. Məhz həmin vəzifələrin son 15 ildə layiqincə yerinə yetirilməsi nəticəsində ölkəmizdə möhkəm sosial-iqtisadi potensial formalaşdırılmasıdır. Bu fikri konkret rəqəmlərlə ifadə etsək, deyə bilərik ki, son 15 ildə Azərbaycan iqtisadiyyatına 250 milyard dollara yaxın vəsait yatırılmış, qeyri-neft sektoruna qoyulan məbləğ isə 100 milyard manatdan çox olmuşdur. Bundan başqa, sözügedən dövrdə Azərbaycanın qeyri-neft sektoru 3,2 dəfə, qeyri-neft sənayesi 2,6 dəfə, kənd təsərrüfatı 1,8 dəfə, rabitə 4,9 dəfə, turizm 20,2 dəfə artmışdır. Bunun nəticəsində isə işsizlik səviyyəsi 5 faizə qədər endirilmiş, 1,9 milyon yeni iş yeri yaradılmışdır.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında söylədiyi nitqində bu məqama toxunaraq demişdir: "Aprel ayında keçirilmiş prezident seçkiləri bir daha onu göstərdi ki, Azərbaycan xalqı bizim siyasətimizə çox böyük dəstək verir. Seçkilərdə qazandığım inamlı qələbə onu göstərir ki, son 15 il ərzində görülmüş işlər Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirilir. Bu böyük dəstək bizə imkan verəcək ki, bundan sonra da ölkəmizi inkişaf yolu ilə inamla irəliyə aparaq".

Dövlətimizin başçısı bu il martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşündə isə həmin fikrin davamı olaraq vurğulamışdır: "Ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyur, bütün sahələrdə çox ciddi islahatlar aparılır. İslahatların yeni mərhələsinin anonsu keçən il prezident seçkilərindən sonra verilmişdir. Ciddi islahatların hazırlanması üçün keçən ilin ikinci yarısında çox fəal iş aparılırdı və bu ilin əvvəlindən genişmiqyaslı islahatlara start verildi. Bu islahatlar bütün sahələri əhatə edəcək. Buna ehtiyac var. Hətta inkişaf etmiş ölkələrdə daim islahatlar aparılır. İslahatlar yenilik, yeni yanaşma, mövcud problemlərin həlli deməkdir. Bu baxımdan 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır".

Dövlət başçısının qeyd etdiyi kimi, keçən il prezident seçkilərindən sonra anonsu verilən islahatların yeni mərhələsi artıq üç aydır ki, başlanmışdır. Qısa müddət ərzində ölkə əhalisinin yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsi istiqamətində ciddi tədbirlər gerçəkləşdirilmiş, Prezident İlham Əliyevin birbaşa rəhbərliyi altında pensiya, ünvanlı yardım, əlilliyə görə müavinətlərin verilməsi və məşğulluq sahələrində şəffaflığın, habelə sosial ədalətin tam təmin olunması, bürokratiya, süründürməçilik və korrupsiya hallarının aradan qaldırılması,

məmur-vətəndaş təmasının minimuma endirilməsi ilə bağlı mühüm addımlar atılmışdır.

Dövlət başçısının qeyd etdiyi kimi, 2017-ci il iqtisadi sabitləşmə ili olmuşdur. Keçən il isə iqtisadi inkişaf mərhələsinə qədəm qoyulmuşdur. Bu il isə artıq inkişaf daha da böyük ölçülərlə özünü göstərir: "İqtisadi islahatlar imkan verdi ki, sosial sahədə çox ciddi addımlar atılsın. Bu ilin əvvəlindən keçən il ərzində hazırlanmış sosial layihələr icra edilməyə başlanmışdır. Azərbaycan vətəndaşları bunu yaxşı bilirlər. Minimum əməkhaqqının, minimum pensiyanın təxminən 40 faiz artırılması 830 minə yaxın insanı əhatə edir. Sosial müavinətlərin orta hesabla 100 faiz artırılması təxminən 600 min insanı əhatə edir. Çoxmənzilli binaların sənədləşdirilməsi təxminən 350-400 min insanı əhatə edir. Şəhid ailələrinin problemlərinin həlli, müavinətlərin artırılması və ödənişlərin verilməsi minlərlə insanı əhatə edir. Tələbələrin təqaüdləri əhəmiyyətli dərəcədə artırıldı, bu da 100 mindən çox tələbənin maliyyə vəziyyətini yaxşılaşdırır".

Bütün bunlar deməyə əsas verir ki, son 15 illik zaman kəsiyində baş verən uğurlu iqtisadi inkişaf prosesi hazırda uğurla davam etdirilir və bu, sosial sahədə də geniş islahatların aparılmasına və əhalinin sosial rifahının yüksəldilməsinə real imkanlar yaradır. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycan dünyanın iqtisadi cəhətdən güclü, nüfuzlu ölkəsi olmaqla yanaşı, insan inkişafı indeksinə görə, öndə gedən ölkələrdən biri kimi qiymətləndirilir və xalqımızın firavan gələcəyə ümidlərini daha da artırır.

Sadıq SALAHOV,
iqtisad elmləri doktoru,
professor